UOT 94 (479.25)

# AXC VƏ TÜRKİYƏ ARASINDA MALİYYƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ (1918-1920-ci illər)

**İSA ARSLAN İBRAHİM OĞLU**
***Bakı Dövlət Universiteti***
***isabaklı1@hotmail.com***

*Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli hökumət maliyyə vəziyyətini qaydaya salmaq, pul-kredit siyasətinin əsaslarını yaratmaq üçün Osmanlı dövlətindən çeşidli yardımlar aldı. Bu yardımlar dövriyyədə olan pul qıtlığını aradan qaldırmaq üçün Osmanlı dövlətinin dərhal nəğd pul göndərməsi, əlverişli şərtlərlə kredit verməsi, gənc Azərbaycan hökumətinə maliyyə məsələləri üzrə məsləhətçi ayırması, İstanbulda Azərbaycan pullarının və digər qiymətli kağızların çap edilməsi və s. sahələrə aid idi.*

*AXC hökuməti maliyyə vəziyyətini qismən nizama saldıqdan sonra Türkiyədən ölkəmizə işləmək üçün dəvət edilən hərbçilərə, müəllimlərə və digər mütəxəssislərə yüksək əmək haqqı ödəməyə başladı. 1920-ci ilin mart ayında isə Mustafa Kamal Paşanın başçılıq etdiyi milli-azadlıq hərəkatına maliyyə yardımı göstərdi.*

**Açar sözlər:** Osmanlı dövləti, AXC, maliyyə, pul, bon, kredit, müşavir, yardım

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli hökumət qarşısında duran ən mühüm vəzifələrdən biri maliyyə vəziyyətinin, pul-kredit siyasətinin nizama salınması idi. Bu istiqamətdə Osmanlı dövlətinin yardımları böyük əhəmiyyətə malik idi. Bu yardımlar Azərbaycan hökumətinə nağd pul verilməsi, maliyyə məsələləri üzrə məsləhətçi ayrılması, Azərbaycan pullarının və digər qiymətli kağızların İstanbulda kəsilməsi və s. sahələrə aid idi.

1918-ci il iyunun əvvəlində Batum şəhərində Osmanlı dövləti ilə sülh danışıqları aparıldığı zaman Azərbaycan nümayəndələri Osmanlı nümayəndə heyətinin başçısı, Ədliyyə naziri Xəlil bəydən xahiş etdilər ki, yeni yaranmış Azərbaycan hökumətinə maliyyə məsələləri və xarici işlər üzrə müşavirlər göndərsin. Türkiyənin paytaxtında keçirilməsi nəzərdə tutulan beynəlxalq konfransda iştirak etmək üçün göndərilmiş, M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti 1918-ci il iyunun 24-də İstanbula çatdıqdan dərhal sonra Xəlil bəylə görüşdə yenidən müşavirlər göndərilməsi məsələsini qaldırdı. Osmanlı tərəfi maliyyə məsələləri üzrə aparıcı mütəxəssis olan Xalid bəyi 2 aylığa müşavir kimi

ezam etməyə razılıq verdi. Lakin Xalid bəy dərhal Azərbaycana yola düşməyin iki səbəbdən: müharibə getdiyi və hökumətin paytaxtdan kənarda fəaliyyət göstərdiyi üçün faydasız olacağını bildirdi. Ona görə də, Xalid bəy belə bir vəziyyətin davam etdiyi müddətdə İstanbuldan tövsiyələrini bildirməyi daha münasib saydı [1, 38].

Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski M.Ə.Rəsulzadəyə ünvanladığı 11 iyul 1918-ci il tarixli direktivində bildirdi ki, Azərbaycan Cümhuriyyəti çox kəskin şəkildə maliyyə vəsaiti sıxıntısı yaşayır. Hazırda ölkədə dövriyyədə olan Cənubi Qafqaz bonları azdır və yeni bon buraxılması haqqında gürcü və erməni nümayəndələri ilə aparılan danışıqlar hələlik bir nəticə verməmişdir. Ona görə də, Azərbaycan hökuməti adından təcili surətdə Türkiyədən 1,5-3 milyon lirə həcmində borc alınması məsələsini qaldırdı. Azərbaycan tərəfi həmin vəsaiti 1-1,5 il ərzində geri qaytarmağı öhdəsinə götürdü [1, 30].

Bəhs olunan dövrdə dövriyyədə olan pul kütləsi çatışmırdı. Bununla əlaqədar olaraq Fətəli xan Xoyski Azərbaycan nümayəndə heyətinin başçısına göstəriş verdi ki, daxili tələbatı ödəmək üçün İstanbulda 100 milyon manat miqdarında Azərbaycan bonu buraxılmasını təmin etsin. Azərbaycan bonları 500, 100, 50, 25, 10, 5, 3, 1 manatlıqlar şəklində buraxılmalı idi. Azərbaycan hökuməti bonların forması, ölçüsü və digər məsələləri yerində tənzimləmək üçün iyul ayının əvvəlində Xarici İşlər Nazirliyinin səlahiyyətli nümayəndəsi Səlim bəy Behbudovu və Azərbaycan Ticarət və Sənaye Nazirliyinin səlahiyyətli nümayəndəsi Əsəd bəy Rüstəmbəyovu İstanbula ezamiyyətə göndərdi [1, 30].

Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski M.Ə.Rəsulzadəyə ünvanladığı 31 iyul 1918-ci il tarixli məktubunda bir daha qeyd etmişdi ki, Azərbaycan hökumətinin böyük qayğısı pul qıtlığıdır: "Siz bu istiqamətdə təcili və təsirli tədbirlər görməsəniz, 2 həftədən sonra tamam pulsuz qalacağıq. İlk növbədə, 1 milyon Türkiyə lirəsi borc verilməsinə çalışın, sonra isə öz bonlarımızın buraxılmasına və göndərilməsinə başlayın" [1, 43].

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y.Cəfərovun Azərbaycan hökumətinə ünvanladığı 17 iyul 1918-ci il tarixli məxfi məlumatda bildirilirdi ki, Gürcüstan hökuməti köhnə bonların (Cənubi Qafqaz Komissarlığı dövründə buraxılan bonlar nəzərdə tutulur – İ.A.) nümunəsində pul çap etməyə başlamışdır. Məlumatda daha sonra qeyd edilirdi ki, Gürcüstan və Ermənistanın məsuliyyət daşıması şərti ilə həmin pulların dövriyyəyə buraxılması üçün gürcü və erməni nümayəndələri danışıqlar aparırlar [2, siy. 1, iş 18, v.66].

Doğrudan da, 1918-ci il iyul ayının 20-də Gürcüstan və Ermənistan hökumətləri, Azərbaycan hökumətinə xəbər vermədən, 200 milyon Cənubi Qafqaz Komissarlığı bonu buraxılması haqqında müqavilə imzaladılar. Rusiya Dövlət bankının Tiflis kontoru tərəfindən buraxılmış 200 milyon bonu öz aralarında bölüşdürdülər. Azərbaycan hökuməti buna qəti etirazını bildirdi [2, siy. 1, iş 18, v.141]. Etiraz notasının bir surətini də İstanbula göndərdi ki, burada keçirilməsi nəzərdə tutulan sülh konfransında elan edilsin [1, 43].

Osmanlı dövləti gənc Azərbaycan Respublikasının maliyyə çətinliklərini yoluna qoymaq üçün təcili addımlar atdı. Hərbi Nazirliyin müstəşarı, Osmanlı

Hərbi Dəmir Yolları və Limanları Baş İdarəsinin rəisi İsmayıl Haqqı paşa 1918-ci il iyulun ortalarında Gəncədə Azərbaycan hökuməti üzvləri ilə görüşündə qısa müddət ərzində yarım milyon Türkiyə lirəsi göndərməyi öhdəsinə götürdü [1, 45]. İsmayıl Haqqı paşanın Azərbaycana səfəri zamanı, iyulun 14-də Azərbaycan hökuməti ilə Türkiyə Hərbi Dəmir Yolları və Limanları Baş İdarəsi ilə bağlanmış müqaviləyə görə Azərbaycan dəmir yolları bütün vaqon və parovozları, bütün digər əmlakı ilə birlikdə 5 illiyə Osmanlı dövlətinin sərəncamına verildi. Müqavilənin 4-cü bəndinə görə Osmanlı tərəfi yolun istismar xərcləri çıxıldıqdan sonra qalan xalis illik gəlirin 75 faizini Azərbaycan hökumətinə verməyi öhdəsinə götürdü [1, 31].

Osmanlı tərəfi həmçinin yeni yaranmış Azərbaycan hökumətinin maliyyə sıxıntılarını nəzərə alaraq bu ölkədən gələn nümayəndələrin maliyyə xərclərini ödəyirdi. 1918-ci ilin iyun ayında Türkiyə tərəfi İstanbula gələn Azərbaycan nümayəndələrinə 1000 lirə vermişdi [2, siy. 1, iş 18, v. 66]. Bundan başqa, özünü Azərbaycan xalqının nümayəndəsi kimi təqdim edən Rövşən bəy İstanbulda mehribanlıqla qarşılanmış və bahalı «Pera-Palas» otelində yerləşdirilmişdi. Ona Osmanlı dövlətinin qonağı kimi hər gün üçün 10 lirə xərclik ayrılmışdı [1, 39].

Azərbaycan hökuməti Osmanlı dövlətinin maliyyə yardımlarını minnətdarlıqla qəbul etməklə bərabər, İstanbuldakı Azərbaycan nümayəndə heyətindən xahiş etdi ki, çox qısa bir zaman ərzində İstanbulda Azərbaycan bonu buraxılmasına nail olsun. Çünki 1918-ci ilin iyun-iyul aylarında gürcü və erməni hökumətləri birgə razılıq əsasında Tiflisdə Cənubi Qafqaz bonu buraxılmasını davam etdirməklə öz maliyyə problemlərini qismən yoluna qoymuşdular. Azərbaycan hökuməti isə tezliklə Bakını tutmaq və orada öz milli pulunun buraxılmasını təşkil etməyi planlaşdırırdı. Lakin Bakının azad edilməsinin yubanması, həmçinin pul kəsilməsi üçün gərəkli kağız, rəng və dəzgahların yoxluğu, Azərbaycan hökumətini vadar etdi ki, öz milli valyutasının təcili surətdə İstanbulda buraxılmasına qərar versin. İstanbuldakı Azərbaycan nümayəndə heyətinə tövsiyə edildi ki, pul kəsilməsi işini qaydaya salmaq üçün yerli mütəxəssisləri, o cümlədən Türkiyədən Azərbaycana maliyyə müşaviri kimi ezam edilməsi nəzərdə tutulan nümayəndəni cəlb etsin [1, 45].

M.Ə.Rəsulzadənin 1918-ci il avqustun 4-də M.H.Hacınskiyə göndərdiyi məlumatda maliyyə məsələlərinin artıq yoluna qoyulduğu bildirilirdi. Həmin məlumata görə Türkiyə hökuməti Azərbaycana 2 milyon lirə borc verməyi qərara almışdı. Altı ay ərzində Azərbaycan hökumətinə çatdırılmalı olan bu borcun 10 il müddətində geri qaytarılması nəzərdə tutulurdu. Bundan əlavə Türkiyə hökuməti İstanbulda «Azəri» adlı Azərbaycan bonu buraxılmasına yardım göstərməyə də qərar vermişdi [1, 47]. İşi sürətləndirmək üçün həmin vaxt Almaniyada olan Türkiyə Maliyyə Naziri Cavad bəyin bu məsələ üzrə razılığı teleqraf vasitəsilə alınmışdı.

M.Ə.Rəsulzadə 1918-ci il sentyabrın 2-də İstanbuldan M.H.Hacınskiyə ünvanladığı məktubda maliyyə məsələsi ilə əlaqədar məlumat vermişdi ki, Azərbaycan hökuməti adından o, Azərbaycan Xarici İşlər Nazirliyinin səlahiyyətli

nümayəndəsi Səlim bəy Behbudov və Azərbaycan Ticarət və Sənaye Nazirliyinin səlahiyyətli nümayəndəsi Əsəd bəy Rüstəmbəyov Osmanlı Hərbi Dəmir Yolları və Limanları Baş İdarəsinin rəisi Feriq İsmayıl Haqqı bəylə müqavilə bağlamışlar. Müqaviləyə görə, Azərbaycan hökuməti özünəməxsus olan yun, pambıq, neft, ərzaq, biyan kökü və s. mallardan 2 milyon türk lirəsi dəyərində məhsulu Osmanlı dövlətinə satacaq, satdıqca da pulunu alacaqdır. Mallar satıldıqdan sonra onun mühafizəsi, daşınması və digər xərcləri alan tərəf qarşılayacaqdır [1, 59, 83-85]. Bu müqavilənin davamı kimi ikinci bir müqavilə də bağlanmışdı ki, Osmanlı hərbi dəmir yolları və limanları baş idarəsi birinci müqavilənin hesabına Azərbaycan hökumətinə 500 min türk lirəsi avans verir. Bu avans 2 milyon lirə dəyərində mallar satıldığı əsnada hissə-hissə qaytarılacaqdır [1, 59-60, 85-87].

M.Ə.Rəsulzadə həmin məktubunda Azərbaycan bonlarının – qaimələrin İstanbulda buraxılmasına hazırlıq haqqında da ətraflı məlumat vermişdi. «Azəri» adlanan 1-3-5-10-25-50-100-500 manat dəyərində pulların rəsmlərinin rəssam tərəfindən çəkildiyi və onların üzərinə rəsmi bayrağımızın üzərindəki ay və səkkizguşəli ulduzun bənzərinin qoyulduğunu bildirmişdi. Bundan başqa poçt və gerb markaları çapı üçün də tədarük görüldüyünü qeyd etmişdi [1, 60]. Bütün bu işlərdə Azərbaycan nümayəndə heyətinə Osmanlı bankının müdiri, namuslu və etibarı ilə məşhur olan Həmid bəy yardım göstərmiş, gərəkli məsləhətlər vermişdi.

M.Ə.Rəsulzadə 1918-ci il sentyabrın 6-da M.H.Hacinskiyə göndərdiyi növbəti məktubda Ənvər paşa ilə görüşməsi haqqında məlumat vermişdi. Həmin görüşdə qeyd edilmişdi ki, Türkiyə tərəfi Azərbaycana verəcəyi avansı artıq Nuru paşaya göndərmişdir [3, siy.10, iş 31, v.28-29].

M.Ə.Rəsulzadənin 1918-ci il sentyabrın sonunda Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyskiyə göndərdiyi məktubda maliyyə müşaviri Həmid bəyin belə bir məsləhətini çatdırmışdı ki, Azərbaycan hökuməti tezliklə belə bir qanun elan etsin: heç kəs yeni qanun və göstərişlər verilincəyə qədər mədənləri, ticarət müəssisələrini, gəmiləri sata və ya uzun müddətə icarəyə verə bilməz. Həmid bəy ehtiyat edirdi ki, xarici təbəələr qəsdən yaranmış vəziyyətdən istifadə edib mədənləri, ticarət müəssisələrini, gəmiləri dəyər-dəyməzinə satın alıb, sonra da Azərbaycan hökumətinin bu sahədə istədiyi qanun-qayda yaratmasına mane ola bilərlər [1, 80].

Həmin məktubda maliyyə məsələsi ilə bağlı qeyd edilmişdi ki, 2 milyon lirə dəyərində alqı-satqı müqaviləsi artıq imzalanmışdır və 500 min lirə avans verilməsi tamamilə həll edilmişdir. Həmin 500 min lirədən 225 min lirə gəmi ilə indi Azərbaycan hökuməti başçısına göndərilir, 25 min lirə isə Ə.Topçubaşovun sərəncamında qalırdı ki, İstanbulda «qaimə» (bon) çap edilməsinə xərcləsin. Qalan 250 min lirə isə bir həftə sonra gedəcək gəmi ilə yola salınmalı idi. Pullarla bərabər, bu məsələ ilə əlaqədar İstanbula ezam edilmiş Əsəd bəy Rüstəmbəyov və Səlim bəy Behbudovun da həmin gəmi ilə yola düşdüyü bildirilirdi [1, 80].

Məktubda daha sonra Azərbaycan pullarının – bonların çap edilməsinə hazırlıq işləri haqqında bilgi verilirdi. Bildirilirdi ki, pulların klişeləri hazırlanır, 20 gündən sonra pulların çapına başlanacaqdır [1, 80]. Lakin 1918-ci ilin oktyabrın-

da Tələt paşanın başçılıq etdiyi hökumətin istefa verməsi, Bolqarıstanın təslim olmasından sonra Almaniya ilə birbaşa əlaqələrin kəsilməsi, cəbhələrdə məğlubiyyətlər Osmanlı dövlətinin Azərbaycana ayırdığı 500 min lirə kreditin qalan hissəsinin göndərilməsini və İstanbulda Azərbaycan pullarının kəsilməsini təxirə saldı.

Belə bir şəraitdə AXC hökuməti 1918-ci il noyabrın 15-də Gürcüstanla maliyyə məsələləri üzrə müqavilə bağladı. Bu müqavilə Gürcüstanla Ermənistan arasında 1918-ci il iyulun 20-də imzalanmış və birlikdə Cənubi Qafqaz Respublikası bonlarını buraxmaq haqqında müqaviləyə əlavə kimi imzalanırdı. Razılaşmaya görə, Dövlət Bankının Tiflis kontoru həmin ilin 25 noyabrına kimi, hər bir respublika üçün 80 milyon rubl olmaqla, cəmisi 160 milyon rubl dəyərində bon buraxmalı idi [1, 99].

Azərbaycanın Osmanlı dövlətinə təyin etdiyi fövqəladə elçisi və səlahiyyətli nazir Ə.Topçubaşov da Türkiyəyə gəldiyi ilk günlərdən maliyyə məsələləri ilə ciddi məşğul olmağa başlamışdı. O, 1918-ci il oktyabrın 2-də Türkiyənin Xarici İşlər Naziri Əhməd Nəsimi bəylə görüşündə minnətdarlıqla bildirmişdi ki, Azərbaycan hökuməti maliyyə məsələsi üzrə təcrübəli mütəxəssislərə ehtiyac yarandıqda, ilk növbədə Türkiyəyə müraciət etmişdir [4, 13].

Ə.Topçubaşovun 1918-ci il noyabrın 25-də Türkiyə Maliyyə Naziri Əbdürəhman bəylə görüşündə Türkiyədə Azərbaycan pulunun çap edilməsi və 500 min lirə kreditin qalan hissəsinin ayrılması məsələləri müzakirə edildi. Görüş zamanı Türkiyə tərəfi Azərbaycan pulunun çapı üçün klişelərin artıq hazır olduğunu və Almaniyadan 2 vaqon kağız gətirildiyini qeyd etdi [4, 75]. Lakin kağızın qalan hissəsinin gətirilməsi beynəlxalq vəziyyətin dəyişməsi – Birinci dünya müharibəsində Almaniya və Osmanlı imperiyalarının məğlub olması, həmçinin Almaniyada inqilab baş verməsi nəticəsində mümkün olmadığı bildirildi.

Türkiyə Maliyyə Naziri Azərbaycan hökumətinə ayrılmış 500 min lirəlik kreditin 250 min lirəsinin artıq verildiyini qeyd etdi. Həmin vəsaitdən 25 min lirə İstanbuldakı Azərbaycan nümayəndələrinin xərcləri üçün ayrılmış, yerdə qalan 225 min lirə isə Osmanlı hökuməti Hərbi Nazirinin keçmiş müstəşarı İsmayıl Haqqı paşa tərəfindən yola salınmışdı. Həmin vəsaiti Batuma, oradan da Gəncəyə və ya Bakıya çatdırmaq üçün İsmayıl Haqqı paşa yüzbaşı Arif bəyi iki zabit və bir neçə əsgərlə göndərmişdi. İsmayıl Haqqı paşa həmçinin Arif bəyə əlavə olaraq 450 min lirə də vermişdi ki, Azərbaycandan pambıq alıb Osmanlı dövlətinə göndərsin [4, 76].

Ə.Topçubaşov Türkiyə Maliyyə Naziri ilə həmin görüşündə ayrılmış kreditin yerdə qalan hissəsinin – 250 min lirə vəsaitin qısa müddətdə Azərbaycan Nazirlər Şurasının sədri F.Xoyskiyə və ya Maliyyə Naziri Ə.Əmircanova çatdırılmasını təmin etməyi xahiş etmişdi. Azərbaycanın diplomatik nümayəndəsi həmçinin qeyd etmişdi ki, əgər indiki vəziyyətdə Türkiyə hökuməti həmin vəsaiti göndərməyə çətinlik çəkirsə, o özü şəxsən və ya köməkçisi Mustafa bəy Vəkilov bunu yerinə yetirə bilərlər [4, 78]. Görüşdə Əbdürəhman bəy vəzifəyə yeni təyin edildiyini bildirərək Azərbaycan tərəfinin qaldırdığı məsələlərlə bağlı Türkiyə hökuməti başçısına məruzə edəcəyini vəd etdi.

1918-ci ilin yayında Osmanlı dövlətinin Azərbaycana maliyyə yardımı göstərməsi və göndərdiyi hərbi qüvvələrin xərcləri üçün vəsait ayırması nəticəsində ölkədə türk lirəsinin dövriyyəsi geniş miqyas aldı. Ona görə də, Azərbaycan hökuməti Türkiyə lirəsinin Cənubi Qafqaz Komissarlığı bonu ilə dəyişdirilməsi məzənnəsini müəyyən etmək zərurəti ilə üzləşdi. Milli hökumət 1918-ci il iyunun 30-da qərar verdi ki, müvəqqəti olaraq 1 Türkiyə lirəsi 20 manata bərabər tutulsun [5, 208].

Lakin bir neçə ay ərzində ölkədə dövriyyədə olan pul kütləsi içərisində türk lirəsinin həcmi kəskin surətdə çoxaldığı üçün Azərbaycan hökuməti 3 sentyabr 1918-ci il tarixdə Bakı bonlarının Türkiyə lirəsinə dəyişdirilməsi üçün aşağıdakı məzənnəni qəbul etdi: 1 Türkiyə lirəsi 40 manat dəyərindəki Bakı bonuna bərabər tutulsun [5, 227]. Oktyabrın 9-da isə respublikada dövriyyədə olan bütün pul nişanları: II Nikolayın və Kerenskinin dövründə kəsilmiş olanlar, həmçinin Bakı və Cənubi Qafqaz bonları eyni dəyərə malik olan edildi. Onların hamısı üçün 20 manatın 1 Türkiyə kağız lirəsinə bərabər tutulması qərara alındı [5, 367-368].

1920-ci il martın 8-də Azərbaycan hökuməti Bakıda pul və digər qiymətli kağızlar buraxılmasını qaydaya salmaq üçün növbəti addım atanda türk iş adamının yardımından bəhrələndi. Hökumət başçısı Maliyyə Nazirinə tapşırdı ki, Türkiyə təbəəsi Əhməd Cövdət bəylə müqavilə bağlasın. Müqaviləyə görə Əhməd Cövdət bəy xaricdən Azərbaycana dövlət kağızları hazırlamaq üçün zəruri olan kağız, mətbəə maşınları, rəng alınıb gətirilməsini təmin etməli idi [5, 410].

Azərbaycan hökumətinin uğurlu pul-kredit siyasəti həm Bakı bonlarının, həm də Cənubi Qafqaz bonlarının məzənnəsinin möhkəmlənməsinə müsbət təsir göstərdi. Bunun nəticəsi idi ki, 1919-cu ilin yayında Tiflis birjasında xarici valyutaların qiymətdən düşməsi fonunda Cənubi Qafqaz bonunun kursunun yüksəlməsi müşahidə edilirdi [6, 2 iyul, 1919, №136].

1919-cu ilin iyul ayında Ərzurumdan korpus komandanı Kazım Qarabəkir paşanın əmrilə Naxçıvan əhalisinin erməni hücumlarından müdafiəsini təşkil etmək üçün piyada qoşun yüzbaşısı Xəlil əfəndi 4 zabit və 7 əsgərlə Bəyazitdən yola salındı. Türk zabitləri naxçıvanlılardan bir alay yaradıb, onlara təlim verməyə başladılar. Bu alay erməni dəstələrinin qətl və qarətlər törətmələrinin qarşısının alınmasında misilsiz rol oynadı. Azərbaycan hökuməti də həmin türk zabitlərinə müntəzəm şəkildə müavinat ödəyirdi [7, 69, 83, 360]. 1920-ci il yanvarın 19-da Dövlət Müdafiə Komitəsinin qərarı ilə İrəvandakı Azərbaycan diplomatik nümayəndəsinə 2 milyon manat vəsait göndərildi ki, Zəngəzur qaçqınlarına yardım göstərsin və bu regiona göndərilmiş təlimatçı – zabitlərə məvacib ödəsin [2, siy.1, iş 22, v.154].

Bəhs edilən dövrdə Azərbaycan, dağılmaqda olan Osmanlı ordusu zabit və əsgərlərinin, vətəndaşlarının bir qisminin əminliklə sığındığı bir ölkə idi. Hər gələn türk zabiti istər Azərbaycan xalqı, istərsə də hökuməti tərəfindən xoş rəftarla qarşılanırdı. Hətta hökumət türk zabitlərinin bir qisminə, orduya alınmamalarına baxmayaraq, pulla müavinət ödəməkdə davam edirdi [8, 269]. Belə xoş münasibətin nəticəsi idi ki, İstanbuldan, Şərqi Anadoludan çoxlu sayda türk zabiti

Azərbaycana gəlmişdi [7, 56].

Azərbaycan hökuməti həmçinin Xalq Maarif Nazirliyinə 1920-ci ilin yanvar ayında icazə verdi ki, Türkiyədən dəvət edilən müəllimlərə əmək haqqının verilməsi işə təyin edildikləri gündən deyil, onların öz ölkələrini tərk etdikləri gündən hesablansın. Nazirlər Şurasının qərarına görə Türkiyədən gəlmiş müəllim və müəllimələrə xidmətə başladıqları zamana qədər orta məktəb müəlliminin məvacibi həcmində yəni ayda 3200 manat ödənilməsinə başlandı [6, №7].

AXC hökuməti Anadoluda başlanmış İstiqlal savaşına 1920-ci ilin mart ayında maddi yardım göndərmişdi. AXC hökumətində Əksinqilab ilə mübarizə təşkilatının rəisi olmuş Nağı bəy Şeyxzamanlı bununla bağlı xatirələrində məlumat vermişdir. Həmin məlumata görə, Azərbaycan hökumətinin başçısı Nəsib bəy Yusifbəyov Ankara hökumətinə çatdırılması üçün 20 min Türkiyə lirəsi və 1 milyon Fransa frankı göndərmişdi. Həmin vəsaiti aparan nümayəndə aprel işğalından sonra AXC hökuməti üzvlərinin Gürcüstana mühacirət etməsi ilə əlaqədar 1000 lirə vəsaiti Tiflisə göndərmiş, pulun qalan hissəsini isə 1920-ci ilin oktyabr ayında Ankarada hökumət nümayəndələrinə təhvil vermişdi [9, 232-233].

AXC dövrünə dair qiymətli tədqiqat əsərinin müəllifi Mirzə Bala Məmmədzadə də belə yardım göstərdiyini qeyd etmişdir: «Mərhum Yusif bəyin (Nəsib bəy Yusifbəyov nəzərdə tutulur – İ.A.) əmri ilə Məmməd Əli Əhmədzadə tərəfindən 1920-ci il oktyabrın 2-də Ankaraya təhvil verilən 19 min Osmanlı lirəsi, 1 milyon fransız frankı və 8 neft vekselinin o zamankı Xarici işlər naziri Əhməd Muxtar bəyin imzası ilə təsdiq edilmiş qəbzi əlimizdədir» [10, 119].

Bütün bu faktlar aydın göstərir ki, Türkiyə və Azərbaycan arasında 1918-1920-ci illərdə digər sahələrdə olduğu kimi maliyyə üzrə də sıx əməkdaşlıq mövcud olmuşdur. 1918-ci ilin yayında və payızında Osmanlı hökuməti gənc Azərbaycan Cümhuriyyətinə maliyyə çətinliklərini aradan qaldırmaq üçün yardımlar etmiş, 1919-cu ilin yayından etibarən Azərbaycan tərəfi də maliyyə sıxıntısı çəkən Türkiyə vətəndaşlarına işə götürmək, müavinət ayırmaqla dəstək vermişdir. Ayrıca AXC rəhbərliyi 1920-ci ilin mart ayında Anadoluda Mustafa Kamal paşanın başçılıq etdiyi milli-azadlıq mübarizəsinə maliyyə yardımı göstərmişdi.

## ƏDƏBİYYAT


1. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (Документы и материалы). Баку: Азербайджан, 1998, 632 с.
2. Azərbaycan Respublikası Dövlət Arxivinin 970 saylı – AXC Xarici İşlər Nazirliyinin fondu
3. Azərbaycan Respublikası Dövlət Arxivinin 894 saylı – AXC Daxili İşlər Nazirliyinin fondu
4. Дипломатические беседы А.А.Топчубашева в Стамбуле (записи чрезвычайного посланника и полномоченного министра Азербайджанской Республики). 1918-1919 гг. Баку: Эргюн, 1994, 164 с.
5. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (Сборник документов) Баку: Азербайджан, 1998, 560 с.
6. Газ. «Азербайджан», 1919-1920 гг.
7. Kazım Karabekir. İstiklal Harbimiz. C.1, İstanbul: 2008, 660 s. Nağı Şeyxzamanlının xatirələri. Bakı: Qartal, 1997, 305 s.
8. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.

9. Nağı Şeyxzamanlının xatirələri. Bakı: Qartal, 1997, 305 s.
10. Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 247 s.

## СОТРУДНИЧЕСТВО В ОБЛАСТИ ФИНАНСОВ МЕЖДУ АДР И ТУРЦИЕЙ (1918-1920 гг.)

**Иса Арслан Ибрагим**

### РЕЗЮМЕ

После образования Азербайджанской Демократической Республики национальное правительство начало приводить в порядок финансовое положение, предпринимал щаги по созданию основы денежно-кредитной политики. В этом деле большую помощь оказало Османское государство: посылал немедленно наличные деньги для ликвидации недостатка денежных масс в обороте, предоставлял кредиты с выгодными условиями, посылало советников по вопросам финансов, начал печатать в Стамбуле деньги и другие ценные бумаги Азербайджана и т.д.

Правительство АДР после того, как провел в порядок финансовую сферу, начал платить высокую заработную плату военным, учителям и другим специалистам, приглашенные из Турции для работы. А в марте 1920 г. оказал финансовую помощь национальному освободительному движению, возглавляемому Мустафа Камаль пашой.

**Ключевые слова:** Турция, АДР, финансы, деньги, боны, кредит, советник, помощь

## THE COOPERATION OF ADR AND TURKEY IN THE FIELD OF FINANCE (THE 1918-1920 YEARS)

**Isa Arslan Ibrahim**

### SUMMARY

After the establishment of the Azerbaijan Democratic Republic, the national government got enough assistance by the Ottoman State to put the financial condition in order and create main bases of the credit and monetary policy. This assistance contributed to the elimination of financial shortage, immediate cash money by the Ottoman state, giving credits under suitable conditions, appointing of adviser for young Azerbaijan government on financial problems and printing Azerbaijan money and other valuable papers in Istanbul.

After resolving the financial problems ADR government increased salaries of teachers, militants and other specialists invited to our country from Turkey, and in March 1920 financially supported the national liberation movement under the leadership of Mustafa Kamal Pasha.

**Key words:** Turkey, ADR, finance, money, cheques, credit, adviser, assist